**UOT 333.35**

# AZƏRBAYCAN BİZNES MÜHİTİNİN TƏHLİLİ

**Natiq TAHİRZADƏ***

Məqalə redaksiyaya daxil olmuşdur: 13 mart 2024; çapa qəbul edilmişdir: 29 aprel 2024; online-da çap edilmişdir: 25 iyun 2024.

Received: 13th of March, 2024; accepted: 29th of April, 2024; published online: 25th of June, 2024.

**Açar sözlər:** *biznes mühiti, biznes, KOS, kiçik sahibkarlıq, reytinq*

## Giriş

Azərbaycan iqtisadiyyatının strukturunun nüvəsini sahibkarlıq fəaliyyəti təşkil edir. Belə ki, sahibkarlıq fəaliyyətinin inkişafı üçün bir sıra hüquqi bazalar yaradılmışdır: "Sahibkarlıq fəaliyyəti haqqında", "Sahibkar cəmiyyətlər haqqında", "Torpaq islahatı haqqında", "Autimonopol fəaliyyət haqqında", "Əmtəə birjası haqqında", "Qiymətli kağızlar haqqında" və digər qanunlar qəbul edilmişdir. Azərbaycanda kiçik və orta biznesin inkişafı üçün "Sahibkarlığa Dəstək Milli Fondu"nun yaradılması çox böyük rol oynamışdır. Neft-qaz sektorundan asılılığı azaltmaq məqsədilə bir çox tədbirlər görülmüşdür. Bu tədbirlər sırasında: xarici investisiyaların cəlb edilməsi; vergi sisteminin təkmilləşdirilməsi; KOB-n tənzimlənməsi üzrə proqramların hazırlanması; sahibkarlıq infrastrukturlarının yaradılması; sənaye zonalarının salınması; texnoparkların salınması; güzəştli kreditlərin verilməsi və digərləri daxildir.

XX əsrin 90-cı illərində həyata keçirilən islahatlar bazarın liberallaşmasına, biznesin inkişafı üçün münbit şəraitin yaradılmasına istiqamətlənmişdir. Əgər 20 il öncə Respublikada sahibkarlıq fəaliyyətinin zəif inkişaf etməsinə baxmayaraq, hazır ki dövrdə UDM-n 80% özəl sektorun hesabına təmin edilir. Ölkəmizdə müəssisələrin 12,4%-i dövlət, 79,3%-i özəl, 3,8%-i isə birgə müəssisələrin payına düşür. 4.9 % qalan müəssisələr 100%-i xarici kapitallı müəssisələrdir (8, s.89). Qeyd edək ki, Azərbaycan iqtisadiyyatına qoyulan investisiyalar birbaşa investisiyalardır. Bu Azərbaycan üçün yeni texnologiya, əlavə kapital, istehsal həcminin artması, yeni təşkilati texnologiyaların mənimsənilməsi, menecmentin təkmilləşməsi, yeni iş yerlərinin açılması deməkdir.

## 1. Azərbaycanda iqtisadı artımın əsas səbəbi yeni texnologiyalardır

Azərbaycanda iqtisadi artımın əsas səbəbi təkanverici yeni texnologiyaların tətbiqidir. İnkişaf etmiş ölkələrdə iqtisadi artımın 70%-i insan potensialının inkişafından, 30%-i isə istehsal kapitalı və təbii resurslardır. Bunun vacibliyini ləngidən əsas səbəblər aşağıdakılardır:

- Bazar mexanizmlərinin tam gücü ilə işlənməməsi;
- Fond bazarının inkişaf etməməsi;
- Xammal sahəsindən maliyyə axınlarının yüksək texnoloji sahələrə axınının nəticə mexanizmlərinin yaradılması və s.

2022-ci ildə Ernest Yang şirkətinin Azərbaycanda təşkil edilən işgüzar biznes buraxılışında Azərbaycanın biznes mühiti haqqında təhlil verilmişdir. Qeyd edək ki, EY

* *magistrant, Bakı Avrasiya Universiteti*
*e-mail:* n.tahirzadə154@gmail.com

(Ernest Yang) dünya səviyyəsində kifayət qədər nüfuzlu bir auditor şirkətdir. Bu dərginin 10-cu səhifəsində Azərbaycanda biznesin inkişafı üçün əlverişli şərait, işlək qanunlar olduğu göstərilir. Məsələn, 1992-ci il "Sahibkarlıq haqqında", "Xarici investisiyalar haqqında qanun", "Torpaq islahatı haqqında qanun" və s. Bu hesabatda Azərbaycanda mənfəət vergisinin tutulması qaydaları, amortizasiya xərcləri, kapital gəlirlər, zərərlər və ümidsiz borclar öz əksini tapmışdır.

Qeyd etmək istərdim ki, bu rəqabət reytinqini Dünya bankı hazırlayır. Bu hesabat 2002-ci ildən hazırlanmağa başlamışdır. 2017-2018-ci illərdə bu qurum tərəfindən 190 ölkənin işgüzar biznes mühiti qiymətləndirilərək çap edilmişdir. Əsasən, 11 indikator və 45 alt indikatordan istifadə edilərək qiymətləndirmə aparılır. Bu hesabat hazırlanarkən 4 məlumat mənbəyi: qanunlar, sorğu nəticələri, ölkə rəhbərliyinin və DB-nın (Dünya bankı) region üzrə əməkdaşları tərəfindən alınan məlumatlar əsas götürülür.

## 2. Azərbaycan biznes mühitinin pandemiyayaqədərki vəziyyəti

Son illərdə Azərbaycan, Dünya bankının verdiyi məlumatlardan narazı olduğuna görə bu hesabatda iştirak etmək istəmir. Amma mətbuatda yazılanlara əsasən, 2024-cü ildə bu hesabatın açıqlanması nəzərdə tutulur. 2019-cü ildən göstəriciləri *Cədvəl. 1*-də verməklə Azərbaycan biznes mühitinin pandemiyaya qədər olan vəziyyətinə nəzər salaq:

**Cədvəl 1. Doing Business indeksi üzrə Azərbaycanın reytinqi**

| | 155 ölkə | 175 ölkə | 81 ölkə | 83 ölkə | 85 ölkə | 89 ölkə | 89 ölkə | 90 ölkə | 90 ölkə | 90 ölkə | 90 ölkə |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| İllər | 2006 | 2007 | 2009 | 2010 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
| Reytinq | 98 | 99 | 3 | 38 | 67 | 70 | 80 | 80 | 65 | 67 | 75 |

**Mənbə:** (Doing Business 2019)

Göründüyü kimi, Azərbaycanın Doing Business üzrə ümumi reytinqi 190 ölkə içərisində 9-cudur. Tikinti icarələrinin alınmasında 61, elektrik təchizat şəbəkələrinə qoşulmada 79, əmlakın qeydiyyatı üzrə 17, kreditin alınması reytinqi 22, müqavilələrin icrasında 40, müflisləşmənin həllində 45 kimi dəyərləndirilir.

**Şəkil 1. Ölkə iqtisadiyyatında kiçik sahibkarlığın nümayəndəlik səviyyəsi**




**Qeyd:** (azstat org-un göstəriciləri əsasında tədqiqatçı tərəfindən tərtib edilmişdir).

### 3. İqtisadi fəaliyyət növləri üzrə Azərbaycanda kiçik biznes subyektlərinin bölüşdürülməsi

2020-ci ildə 348 min işçi çalışır. Biznes fəaliyyətində kiçik sahibkarlıqda 92,1 min nəfər çalışır. Əsas kapitala qoyulan investisiyaların cəmi 2674 milyon manatdır. Bundan 380 min kiçik sahibkarlığın payına düşür. Diaqramdan göründüyü kimi, kənardan alınan investisiya 2021-ci ildə kiçik sahibkarlığa daha çox tətbiq olunub.

**İqtisadi fəaliyyət növü üzrə kiçik, orta və mikro biznes subyektləri tərəfindən yüklənmiş malların dəyəri** **Cədvəl 2**

| İqtisadi fəaliyyət növləri | Cəmi | 2020 | | | Cəmi | 2022 | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | Kiçik | Mikro | orta | | Mikro | kiçik | Orta |
| İqtisadi fəaliyyət növləri (min,manat) | 19735,9 | 2,9181 | 7.261,1 | 29.591,3 | 24,747 | 4.373 | 4.230 | 11144.0 |
| Kənd təsərrüfatı | 749753, təsəvvüf | 161371 | 179786 | 406596 | 725535,3 | 178916 | 18342 | 363575 |
| Sənaye | 4007,466 | 442,540 | 501.980,0 | 3.062,945 | 4.608,093 | 546032,5 | 603407.11 | 3.458,25 |
| Ticarət | 4993,035 | 3.572,206 | 966135,2 | 7.042404,8 | 4.546,607 | 1.177476 | | 131834 |

**Mənbə:** (azstat.org http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/).

**Ölkə Ümumdaxili Məhsulunda kiçik biznesin payı (2005-2022-ci illər)** **Cədvəl 3**

| İllər | UDM (mln,man) | Kiçik biznes (mln,man) | UDM-də kiçik biznesin payı (%) |
|---|---|---|---|
| 2005 | 10326.7 | 714.0 | 6.3 |
| 2010 | 41259.3 | 1219.7 | 2.6 |
| 2014 | 46031.1 | 1437.1 | 3.2 |
| 2020 | 72578.2 | 1617.3 | 2.1 |

| | | | |
|---|---|---|---|
| 2022 | 93204.2 | 2384.5 | 2.4 |

**Mənbə:** (azstat.org http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/).

UDM-də kiçik sahibkarlığın payı 2005-ci ildə 2021-ci ildə ki göstəricidən 3 dəfə çox olmuşdur. Əlbəttə azalmanın səbəblərinin araşdırılması vacibdir. 2010, 2014, 2020 və 2021-ci ildəki göstəricilər biri o birindən çox az fərqlənir.

Diaqram 1-də isə kiçik sahibkarlıq subyektləri ümumi KOS-la müqayisə edilir.

**Diaqram 1. 2020 və 2021-ci ildə ümumi sahibkarlığın subyektləri və kiçik sahibkarlıq subyektlərinin müqayisəsi**




**Mənbə**: (https://www.stat.gov.az/source/system_nat_accounts/).

Diaqramdan göründüyü kimi, kiçik sahibkarlıq subyektləri ümumi sahibkarlıq subyektlərinin 1,8%-ni təşkil edir. 2021-ci ildə isə kiçik sahibkarlıq subyektləri ümumi hesablama üzrə 2%-i təşkil edir. Orta sahibkarlıq subyektləri isə 1%-dən aşağıdır. Mikrosahibkarlıq isə 97%-i təşkil edir.

**Şəkil 2. İqtisadi fəaliyyət növləri üzrə Azərbaycanda kiçik biznes subyektlərinin bölüşdürülməsi (2022-ci il üzrə)**




**Mənbə:** (https://www.stat.gov.az/source/system_nat_accounts/).

Cədvəldən göründüyü kimi, kiçik biznes fəaliyyətində ən çox yeri (48,9%) ticarət və nəqliyyat vasitələrinin təminine, 3,6% sənaye, 1,5% tikinti sektoruna, *Şəkil. 1*-də boz

sahə 14,1% nəqliyyat və anbar təşkilatlarının payına düşür. Hazırda KOBİA mikro, kiçik və orta sahibkarlara daxili bazar araşdırmalarının aparılmasında, təhsil, elmi, tədqiqat və dəstək layihələrinin həyata keçirilməsində, satış imkanlarının genişləndirilməsi üçün ixtisaslaşdırılmış sərgilərdə pulsuz iştirakda, satış imkanlarını artırmaq üçün pulsuz təlim və konsaltinq xidmətləri göstərməkdə bilik və bacarıqlar, sosial sahibkarlığın inkişafı və sair məqsədlər üçün maliyyə dəstəyi göstərir.

Hər bir sistemin özünə xas olan xüsusiyyətləri mövcuddur. Biz bunları xarakterizə edərək, Azərbaycan Respublikasının iqtisadi modelinin xüsusiyyətlərini, eyni zamanda kiçik və orta biznesin liberal sosial-iqtisadi modeldə yeri və rolunu aşağıdakı cədvəl üzrə təhlil etmişik.

**2022-ci ildə respublikada kiçik və orta biznesin payı (%-lə) Cədvəl 4**.

| **KOS göstəriciləri** | **Kiçik** | **Orta** | **Cəmi** |
|---|---|---|---|
| Cəmi iqtisadiyyatda yaranan əlavə dəyərdə payı, | 1 0.0 | 8.0 | 18.0 |
| O cümlədən qeyri-neft sektorunda | 15.0 | 12.0 | 27.0 |
| İnvestisiya qoyuluşları:qeyri-neft sektoru | 24.0 | 9.0 | 33.0 |
| Respublikada mövcud biznes subyektlərinin sayımda payı | 96.0 | 2.0 | 98.0 |

**Mənbə:** (https://www.stat.gov.az/source/entrepreneurship/).

*Cədvəl. 4*-də göründüyü kimi cəmi iqtisadiyyatda yaranan əlavə dəyərdə kiçik sahibkarlıq 10.0%, orta sahibkarlıq 8%, cəmi kiçik və orta biznesin payı 18%-dir. Qeyri-neft sektorunda, kiçik sahibkarlıq 15%, orta sahibkarlıq 12%, cəmi isə 27%-i təşkil edir. Respublikamızda qeyri-neft sektorunda kiçik və orta biznesin payının fəaliyyəti çoxdur. Bu H.Əliyevin iqtisadi siyasət modelinin uğurunun nəticəsidir. Beləliklə, ölkədə neft sektorunda əldə olunan gəlirlərlə neft olmayan iqtisadi sektorda inkişaf əldə edilir.

Ölkə iqtisadiyyatına qoyulan investisiya miqdarına üç istiqamətdə baxsaq, mikro biznesdə investisiya yatırımı, demək olar ki, ilk göstəriciyə yaxındır (16%). Kiçik və orta sahibkarlıqda bu göstərici birinci ilə eynidir, uyğun olaraq, 7-8%-dir, ümumi götürsək, kiçik və orta biznesin inkişafına investisiya yatırımı qeyri-neft sektorunda 32%-dir. Kiçik və orta biznesin respublikada mövcud biznes subyektlərində payı mikro sahibkarlıqda 98%, kiçik sahibkarlıqda 2%, cəmi kiçik və orta biznesin payında 98%-i təşkil etməkdədir.

## 4. Dövlətin kiçik və orta biznesə dəstəyi

Ekspertlərin sözlərinə görə, Azərbaycanda mikro, kiçik və orta sahibkarlara dəstəyi Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) həyata keçirir və mikro sahibkarlar üçün pulsuz təlimlər keçirir və onlara biznes plan yazmağa kömək edir: "KOS"-ya dəstək mərkəzləri respublikamızın 21 rayonunda fəaliyyət göstərir. Bundan əlavə, respublikanın 29 şəhər və rayonunda KOB dostu ofisləri yaradılmışdır. Biznes qurmaq istəyənlərə, mikro sahibkarlara köməklik göstərirlər. Azərbaycanda kiçik və orta biznes satış kanallarını genişləndirməli və xarici bazarlara çıxış imkanlarını artırmalıdır" (5, s.231).

Bunu Azərbaycan Sahibkarlar Təşkilatları Milli Konfederasiyasının (ASK) vitse-prezidenti öz çıxışında qeyd edib. Onun sözlərinə görə, sahibkarların məhsulları rəqabətqabiliyyətli olmalıdır. Kiçik və orta sahibkarlığın maraqlarının müdafiəsi, biznes təşəbbüslərinin dəstəklənməsi və maarifləndirilməsi respublikanın 24 şəhər və rayonunda fəaliyyət göstərən "KOB-ların dostu" şəbəkəsi vasitəsilə həyata keçirilir. Sahibkarlıq haqqında maarifləndirmə, "KOS"-ların bilik və bacarıqlarının inkişaf etdirilməsi və sair bu kimi tədbirlər həyata keçirilir. Bakı, Sumqayıt, Xaçmaz, Şəki və Yevlaxda fəaliyyət göstərən KOS-lar İnkişaf Mərkəzləri tərəfindən təmin edilir.

Kiçik və orta biznesə göstərilən bütün xidmətlər pulsuzdur. Sahibkarlara kiçik və orta biznes evləri vasitəsilə müxtəlif dövlət və özəl qurumlar tərəfindən vahid məkanda xidmət göstərilir. Hazırda iki kiçik və orta biznes evi fəaliyyət göstərir. Xaçmaz və Yevlaxda hər biri 20-yə yaxın dövlət və özəl qurumdan sahibkarlara 200-dən çox xidmət göstərir"–məlumatı agentlik tərəfindən qeyd edilib (9, s.223).

Xüsusilə, pandemiya dövründə kiçik və orta sahibkarlığa əlavə dəstəyə gəlincə, ölkədə bir sıra layihələr həyata keçirilib. Belə ki, 2021-ci ildən KOS üçün təhsil, elm, tədqiqat və dəstək layihələrinin maliyyələşdirilməsinə başlanılıb. Bu məqsədlə agentlik müsabiqə keçirib və nəticə olaraq maliyyələşdiriləcək layihələri elan edəcəkdir. Müsabiqə çərçivəsində maliyyələşdirilən hər bir layihə üçün 20 min manatadək vəsait ayrılacaq. Bu ildən etibarən mikro və kiçik sahibkarlıq subyektlərinə *"Startap"* sertifikatları verilir. *"Startap"* sertifikatı Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq, KOS-ları üç il müddətinə gəlir vergisindən və innovasiya fəaliyyətindən əldə edilən gəlir vergisindən azad edir"- KOBİA qeyd edib (14).

Bundan əlavə, pərakəndə satış şəbəkələrində KOS məhsullarının satışının genişləndirilməsi, qeyri-neft məhsullarının istehsalının stimullaşdırılması və idxalı əvəz edən yeni istehsal sahələrinin yaradılması üçün müasir mexanizm hazırlanıb. Bu mexanizm pərakəndə satış şəbəkələrində mikro və kiçik biznes məhsullarının satışının təşkili ilə bağlı xərclərin bir hissəsinin dövlət hesabına ödənilməsini tənzimləyəcəkdir. Agentlik qeyd edib ki, o həmçinin KOS-lar üçün satış imkanlarını genişləndirmək və onların məhsul və xidmətlərini tanıtmaq üçün yaxın aylarda onlayn satış platformasını işə salmağı planlaşdırır.

**Nəticə**

Müasir dövrdə makroiqtisadiyyatın Azərbaycanda stabil inkişafı KOB-n aktiv inkişafı ilə baş verir. KOB sahəsində 27,2%-i hüquqi, 77,6%-i isə fiziki şəxslərdir. UDM-da KOS-ın payı 23,9%-dir. AB ölkələrində bu göstərici 40%-ə qədərdir.

Kiçik və orta biznesin əsas vəzifəsi ölkə iqtisadiyyatının bütün sahələrdə rəqabət qalibiyyətli olmasını təmin etməkdir. Dünya təcrübəsi göstərir ki, davamlı inkişafın təmin edilməsi və hər bir milli iqtisadiyyatın normal fəaliyyəti əsasən, tətbiq olunan tənzimləmə sisteminin xarakterindən və ölkədə gedən sosial-iqtisadi proseslərin effektivliyindən asılıdır.

Dövlət, cəmiyyət və iqtisadiyyatlar bir-birindən ayrılmaz, bir-biri ilə əlaqəli və bir-birindən asılıdır. Ümumiyyətlə, Dövlətin iqtisadi funksiyaları bazarda liderlik kimi, koordinasiya, stimullaşdırma və "oyun qaydalarına" əməl olunmasına nəzarət təsnif edilə bilər. Öz növbəsində, bu funksiyalar səmərəliliyə, sosial ədalət, bərabərlik, makroiqtisadi sabitlik, iqtisadi təhlükəsizlik və s. kömək edir.

Azərbaycan geoiqtisadi inkişafda olan iqtisadiyyatının keyfiyyətcə yeni mərhələsinə – aşağı neft qiymətləri, qlobal risklər, çətinliklər olan dünyaya daxil oldu. Bu kontekstdə dövlətin rolu səmərəli iqtisadi inkişaf strategiyasının formalaşdırılması və həyata keçirilməsi, milli iqtisadiyyatın davamlı inkişafının təmin edilməsidir. Başqası ilə əl, qlobal maliyyə böhranı və qloballaşma kontekstində Qlobal iqtisadiyyatın struktu-

runda əsaslı dəyişikliklər baş verir. Belə bir şəraitdə ölkədə tənzimləmə siyasətinin effektivliyi ilk növbədədir. Bu dönüş onun qlobal maliyyə böhranına müqaviməti ilə bağlıdır.

Beynəlxalq praktikadan məlumdur ki, kiçik və orta biznes milli iqtisadiyyatda əhəmiyyətli yerə malikdir. Bu iqtisadiyyatın artım tempini, strukturunu, xalis milli məhsulu müəyyən edir. Dünya ölkələrinin inkişafında kiçik və orta biznes iqtisadiyyatın motoru hesab edilir.

## ƏDƏBİYYAT


1. Allahverdiyeva M. Ümumilli lider Heydər Əliyev Azərbaycanın strateji və geosiyasi maraqlarının təminatçısıdır // Beynəlxalq konfrans, 2021, 82 s.
2. Azərbaycan Respublikasının konstitusiyası. Bakı: Qanun, 2002, 485 s.
3. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Bakı: Qanun, 2019, 597 s.
4. Azərbaycan sənayesi / AR. DSK. Bakı: 9 N-li kiçik müəssisə, 2010-2022. Elektron resurs (https://stat.gov.az/source/industry/).
5. Bayramov A. Biznes və menecmentin əsasları. Bakı, 2011, 325 s.
6. Bayramov Q. Mini market biznesi, kiçik sahibkarlar üçün bələdçi. Bakı: İqtisadi Tədqiqatlar Mərkəzi, 2017, 45 s.
7. Əliyev H. İnkişaf məqsədimizdir. Bakı, 2016, 324 s.
8. Həsənov H.S. İri sahibkarlıq subyektləri. Bakı: Azərnəşr, 2007, 276 s.
9. Manafov Q.H. Sahibkarlıq fəaliyyətinin formalaşması. Dissertasiya, Bakı: 2002, 324 s.
10. Doing biznes in Azerbaijan. World bank group, 2017-2021. (https://www.doingbusiness.org/content/dam/doingBusiness/country/a/azerbaijan/AZE.pdf)
11. Azstat.org http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/.
12. https://www.stat.gov.az/source/entrepreneurship/
13. https://www.stat.gov.az/source/system_nat_accounts/
14. https://www.taxes.gov.az/az/post/189


***Резюме***

**_Натиг Тахирзаде_**

***Анализ бизнес-среды Азербайджана***


Создание эффективной национальной экономики в Азербайджанской Республике требует развития бизнес-сектора в стране. Этот сектор обеспечивает внутренний рынок качественной продукцией и услугами, повышает экспортный потенциал республики, увеличивает занятость, играет важную роль в формировании государственного бюджета, а наличие конкуренции в национальной экономике, влияющей на него, влияет увеличение эффективности. Мировой опыт доказывает, что предпринимательство является важным элементом рыночной экономики. Бизнес часто характеризуется качеством чистого национального продукта.

Бизнес занимает особое место в экономических отношениях, включая в себя необычные инновационные подходы и решения. Кроме того, малый и средний бизнес расширяет сферу занятости, стимулирует занятость большей части населения, то есть работающего населения, помогает работникам полностью реализовать свой творческий потенциал. Роль малого предпринимательства в экономической деятельности страны велика, поскольку малые предприятия позволяют расширить сферы занятости, создать возможности для реализации предпринимательской активности населения, применить творческие силы, стимулировать развитие семейного бизнеса, сократить деловая активность, обеспечение социальной напряженности и ресурсосберегающего экономического роста.

Одним из приоритетов рыночной экономики является развитие малого бизнеса. Мировой опыт показывает, что малый бизнес определяет темпы рыночной экономики, экономического роста, а также обеспечивает распределение финансовых ресурсов. С другой стороны, одним из приоритетов в экономике является создание рабочих мест, а рабочие места на малых предприятиях дешевле, чем на крупных, с этой точки зрения среда малого бизнеса является средой для

создания новых рабочих мест. В статье рассматриваются проблемы бизнес-среды Азербайджана в рыночных условиях. Основное внимание уделяется анализу бизнес-среды страны, особенностей ее развития. В статье представлен фундаментальный анализ малого и среднего бизнеса. В развитии бизнеса в стране нашла свое отражение стимулирующая роль государства, бизнес-рейтинг и другие вопросы.

**Ключевые слова:** *бизнес-среда, бизнес, МСП, малый бизнес, рейтинг*

***Summary***

***Natiq Tahirzadeh***

***Analysis of Azerbaijan's Business Environment***

Creating an efficient national economy in the Republic of Azerbaijan requires the development of the business sector in the country. This sector provides the domestic market with quality products and services, increases the export potential of the republic, increases employment, plays an important role in the formation of the state budget, and the presence of competition in the national economy, which affects it, affects the increase in efficiency. World experience proves that entrepreneurship is an important element of market economy.

Business is often characterized by the quality of the net national product. Business occupies a special place in economic relations by including unusual innovation approaches and solutions. In addition, small and medium business expands the sphere of employment, stimulates the employment of the majority of the population, i.e. the working population, and helps the employees to fully realize their creative potential. The role of small entrepreneurship in the economic activity of the country is great, because small enterprises allow to expand the scope of employment, create opportunities for the implementation of entrepreneurial activity of the population, apply creative forces, stimulate the development of family business, reduce business activity, ensure social tension and resource-saving economic growth.

One of the priorities of the market economy is the development of small business. World experience shows that small business determines the rate of market economy, economic growth, and also ensures the distribution of financial resources. On the other hand, one of the priorities in the economy is the creation of jobs, and jobs in small enterprises are cheaper than in large enterprises, from this point of view, the small business environment is an environment for creating new jobs. The article examines the problems of the business environment of Azerbaijan under market conditions. The main focus is on the analysis of the country's business environment, its development features. The article provides a fundamental analysis of small and medium-sized businesses. In the development of business in the country, the stimulating role of the state, business business rating and other issues have been reflected.

**Key words:** *business environment, business, SME, small business, rating*

Redaksiya heyətinin üzvü i.e.d., prof. Həsənli Yadulla Həmdulla oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.